# Milli Məclisin özünü buraxması islahatlara dəstəyin ifadəsidir




***Azərbaycanda bütün digər sahələrdə olduğu kimi, struktur islahatları sahəsində də ardıcıl addımlar atılır. Milli Məclisin buraxılması ilə bağlı təşəbbüs də bu qəbildəndir. Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təklif həm deputatlar, həm də ictimaiyyət tərəfindən razılıqla qarşılandı. Dekabrın 2-də Milli Məclisin iclasında da bu məsələ müzarikərəyə çıxarıldı və parlamentin buraxılması ilə bağlı yekdil qərar qəbul olundu. Məsələyə münasibət bildirən Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, tarix elmləri doktoru Nizami SÜLEYMANOV dedi:***

– Yeni Azərbaycan Partiyası tərəfindən Milli Məclisin buraxılması ilə bağlı təklifin irəli sürülməsi əvvəlcə insanların təəccübünə səbəb olsa da, sonradan məlum oldu ki, bu, çox düşünülmüş, eyni zamanda, cəsarətli bir addımdır. Niyə də olmasın? Ölkədə Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə genişmiqyaslı islahatlar gedir. Böyük dəyişikliklər baş verir. İnsanların sosial müdafiəsi, güzəranının yaxşılaşdırılması ilə bağlı islahatlara ilin əvvəllərindən başlanıb. İlin sonlarına yaxın kadr və struktur islahatlarına start verilib.

Bir sıra nazirliklərə və rayon icra hakimiyyətlərinə yeni rəhbərlər təyin olunub. Onların əksəriyyəti gəncdir. Prezident İlham Əliyev onları qəbul edərək öz tapşırıq və tövsiyələrini verib. Bildirib ki, ölkədə böyük yeniliklər baş verir, ona görə də idraəetmə sisteminə yeni təfəkkürlü kadrlar lazımdır. Elə Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Prezidentə müraciət edilməsinin səbəbi də, əslində, budur. Parlament də yeniləşməli və qanunvericilik hakimiyyətinə yeni təfəkkürlü insanlar seçilməlidir.

Dekabrın 2-də Milli Məclis də bu məsələyə müsbət reaksiya verdi və parlamentin buraxılması, növbədənkənar seçkilərin təyin edilməsi haqqında Prezident İlham Əliyevə müraciət etdi. Artıq bu məsələ ilə bağlı Konstitusiya Məhkəməsinə də müraciət edilib. İnanırıq ki, ölkədə aparılan islahatlara dəstək məqsədi daşıyan bu məsələ də müsbət həllini tapacaq.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 4 dekabr. S. 3.